***Ramil ƏLİYEV***
*Filologiya elmləri doktoru, professor*
*AMEA Folklor İnstitutu*
*ORCID № 0009-0003-0342-3586*
*e-mail: ramill.aliyev@gmail.com*
*https://doi.org/10.59849/2309-7922.2025.2.11*

# "CIRTDANIN NAĞILI"NDA YUXUNUN MİFOLOJİ-BƏDİİ ANALİZİ

**Xülasə**

Azərbaycan nağıllarında yuxu motivu mətnin formalaşmasında xüsusi rol oynayır. Buna görə də yuxu və mif, yuxu və nağıl problemləri mətnin genetik kodunun üzə çıxarılmasını tələb edir. Bu prosesi aşkar etmək üçün nağılın degenerativ zamanındakı işarələrini axtarmaq lazımdır.

"Cırtdanın nağılı" məşhur Azərbaycan nağılıdır. Bu nağılı uşaqlara sevdirən Cırtdanın ağıllı, Divin isə ağılsız olmasıdır. Bu prizmadan yanaşanda uşaqlara Cırtdan niyə ağıllı görünür? Məsələ bundadır ki, Cırtdanın ağıllı olması qədim insanlarda tarixi şüurun formalaşması ilə bağlıdır. Mifoloji Cırtdan tarixi şüura keçiddə ağıllı kimi təsvir olunmalıdır. Bunun səbəbi tarixi şüur prosesində də ağılsızlığın ağıllılıqla əvəz olunmasıdır. Bu, psixoloji sublimasiya nəticəsində baş verir. Nəzərə alaq ki, ən qədim insanlar (məsələn, nəhənglər) ağılsızlıq dövründə yaşamışlar. Mifoloji şüurdan tarixi şüura keçiddə nəhənglərin ağılsızlıq halı cırtdan insanların ağıllı olmaq halı ilə yerlərini dəyişir. Sonrakı dönəmlərdə ağılsız olan ağıllı kimi təsvir edilir. Bu haqda bir çox dünya xalqlarının nağıllarında da ağıllı və ağılsız obrazlara rast gəlinir. Dediyimiz kimi, bu proses qədim insanlarda tarixi şüurun və dərketmənin formalaşmasından sonra başlamışdır. Bəs mifologiya bu haqda nə deyir? Bu məsələnin kökü çox dərindədir. Mifologiyada Cırtdan və Div bu proseslərdən keçmişlər? Qəti şəkildə deyə bilərik ki, Div bu prosesi keçmiş, Cırtdan isə keçməmişdir.

Divin mifoloji proseslərdən keçməsinin baslanğıcında Əjdaha, Arslan və Təpəgöz kimi qədim totem və onqonları dayanır. Əjdaha xeyirxah tanrı kimi ona inananların nəzərində müqəddəs onqon olmuşdur. Müqəddəsliyini itirəndən sonra şər onqona çevrildi. Arslan da totem səviyyəsində fəaliyyət gözsərmiş, sonradan şər qüvvəyə çevrilmiş, bu şər qüvvələrdən mifoloji şüurda Təpəgöz doğulmuşdur. "Kitabi-Dədə Qorqud"da da Təpəgöz şər əjdahanın, Aruzun övladıdır.

Əjdaha, Arslan, Təpəgöz və Div mifoloji zamanın özünə məxsus çağlarında mövcud olmuşlar. Riyazi-mifoloji dünyagörüşdə 4 rəqəmi ölümün rəmzi kimi əksini tapır. Bu baxımdan dördüncü sırada gələn Divdən sonra yaranış olmamışdır. Neqativ Divin Ölüb-Dirilmə və Böyüyüb-Kiçilmə proseslərindən keçərək, pozitiv Cırtdana çevrilməsi baş verir. Nağılda da neqativ və ağılsız Divin ağıllı və pozitiv Cırtdana çevrilməsinin səbəbi Ölüb-Dirilmə və Böyüyüb-Kiçilmə prosesləridir.

Bundan sonrakı şüurda Div və Cırtdan eyni mənşəli və əkiz qardaşlar kimi mifoloji tarixin alt qatında qalmışlar.

**Açar sözlər:** Yuxu, Div, Cırtdan, nağıl, ölüb-dirilmə, böyüyüb-kiçilmə, Əjdaha, Arslan, mifoloji şüur

***Ramil ALİYEV***

**MYTHOLOGİCAL-ARTİSTİC ANALYSİS OF SLEEP IN “THE DWART'S TALE”**

**Summary**

In Azerbaijani fairy tales, the dream motif plays a special role in the formation of the text. Therefore, the problems of dream and myth, dream and fairy tale require the disclosure of the genetic code of the text. To reveal this process, it is necessary to search for the signs of the fairy tale in its degenerative time.

"The Dwarf's Tale" is a famous Azerbaijani tale. The fact that the Dwarf is smart and the Ogre is stupid is what makes this tale so popular among children. When approached from this perspective, why does the Dwarf seem smart to children? The thing is that the intelligence of the Dwarf is connected with the formation of historical consciousness in ancient people. The mythological Dwarf should be depicted as intelligent in the transition to historical consciousness. This is because in the process of historical consciousness, stupidity is replaced by intelligence. This happens as a result of psychological sublimation. Consider that the most ancient people lived in the era of stupidity. In the transition from mythological consciousness to historical consciousness, the status of being intelligent and the status of being unintelligent change places. In later periods, the unintelligent was described as intelligent. It is possible to come across intelligent and stupid characters in the tales of many peoples in the world. As we said, this process started after the formation of historical consciousness and understanding in ancient people. So what does mythology say about this? The roots of this issue are very deep. Did the Dwarf and the Giant go through these processes in mythology? We can definitely say that the Ogre went through this process, while the Dwarf did not.

Ancient totems and ongons such as Dragon, Arslan and Tepegoz are at the beginning of the Ogre's passing through mythological processes. The Dragon served as a sacred ongon in the eyes of those who worshipped it as a benevolent god. After losing its sacredness, it became a demonic ongon. Arslan also served at the totem level, later turning into a demonic power, and Tepegoz was born from these demonic powers in mythological consciousness. In "Kitabi-Dede Korkut", Tepegoz is the child of the demonic dragon Aruz.

Drakon, Arslan, Tepegoz and Ogre existed in their own mythological eras. In the mathematical-mythological perspective, the number 4 is reflected as the symbol of death. From this perspective, there was no creation after the Ogre, which is in the fourth place. The negative big Ogre goes through the processes of

Death-Resurrection and Growth-Shrinkage and turns into the positive Dwarf. In the tale, the reason why the negative and mindless Ogre turns into the intelligent and positive Dwarf is the processes of Death-Resurrection and Growth-Shrinkage. From that moment on, the Ogre and the Dwarf remained in the lower layer of history as twin brothers from the same origin.

**Keywords**: Sleep, Ogre, Dwarf, tale, death-resurrection, growth-shrinkage, Dragon, Arslan, mythological conscousness

***Рамиль АЛИЕВ***

**МИФОЛОГО-ХУДОЖЕСТВЕННЫЙ АНАЛИЗ СНА В «СКАЗКЕ ГНОМА»**

**Резюме**

В азербайджанских сказках мотив сна играет особую роль в формировании текста. Поэтому проблемы сна и мифа, мечты и сказки требуют раскрытия генетического кода текста. В азербайджанских сказках мотив сна играет особую роль в формировании текста. Поэтому проблемы сна и мифа, сна и сказок требуют раскрытия генетического кода текста. Чтобы обнаружить этот процесс, необходимо искать признаки дегенеративного времени сказки.

«Сказка Гнома» — известная азербайджанская сказка. Тот факт, что Гном умен, а Великан Див глуп, делает эту историю такой популярной среди детей. Если подойти с этой точки зрения, почему гном кажется детям умным? Дело в том, что интеллект гномов связан с формированием исторического сознания у древних людей. Мифологического Гнома следует изображать разумным в процессе перехода к историческому сознанию. Это потому, что в процессе исторического сознания глупость сменилась интеллектом. Это происходит в результате психологической сублимации. Давайте рассмотрим, что древнейшие люди жили в период неразумия. При переходе от мифологического сознания к историческому сознание неразумность меняется местами с состоянием разумность. В более поздние периоды неразумный человек описывается как разумный человек. Умных и глупых персонажей можно встретить в сказках многих народов мира об этом. Как мы говорили, этот процесс начался после формирования исторического сознания и понимания у древних людей. Но что говорит об этом мифология? Корень этой проблемы очень глубок. Проходили ли эти процессы в мифологии Гном и Великан? Мы можем с уверенностью сказать, что Гном прошел через этот процесс, а Гном – нет.

Древние тотемы и онгоны, такие как Дракон, Арслан и Тепегоз, стоят у начала прохождения мифологических процессов Див-Великан. Дракон стал священным онгоном в глазах тех, кто верит в него как в доброжелательное божество. Потеряв свою святость, зло стало продолжающимся. Арслан также проявил активность на тотемном уровне, а позже превратился в злую

силу, из этих злых сил в мифологическом сознании родился Тепегоз. В «Китаби-Деде Горгуд» Тепегоз - ребенок злого дракона Аруза.

Дракон, Арслан, Тепегоз и Див-Великан существовали в свои эпохи мифологического времени. В математико-мифологическом мировоззрении число 4 отражается как символ смерти. С этой точки зрения после Дива, который занял четвёртый ряд, не было никакой формации. Преобразование отрицательного Див-Великан в положительного Гнома происходит посредством процессов Смерти-Воскресения и Роста-Уменьшения. В сказке причиной превращения отрицательного и неразумного Бога в разумного и положительного Гнома является процесс Смерти-Воскрешения, Рост-Уменьшение. В более позднем сознании Див-Великан и Гном остались в субстрате истории как братья-близнецы одного происхождения.

**Ключевые слова**: Сон, Див-Великан, Гном, сказка, смерть и воскресение, рост и уменьшение, Дракон, Арслан, мифологическое сознание.

Cırtdan yuxu ilə bağlı olan folklor obrazıdır. Yuxu da degenerativ zamanın məkan forması kimi nağılın kosmik işarəsinə çevrilir və sehrli nağılların mifoloji strukturunun yaranmasında rol oynayır. Müəyyən zaman keçdikdən sonra bu işarə nağılın alt qatında qalır, süjet isə mifoloji strukturdan təmizlənir, yuxu və mifoloji süjet uşaq nağıllarında bədii mahiyyət qazanır. Yuxu ilə bağlı olan bir çox nağıllar vardır. "Cırtdanın nağılı" bu prosesi izləməyə bizə çox imkan verir.

Azərbaycan nağıllarının təsnifatında bir çox alimlər tərəfindən sehrli, heyvanlar haqqında, totemik nağıllar və digər başlıqlar altında qruplaşdırmalarda yuxunun iştirakı zəif görünür. Belə nağıllarda degenerativ zamanla bağlılıq hələ öyrənilməmişdir. Uşaq nağıllarında isə öz məzmun xüsusiyyətlərinə görə degenerativ zaman bərpa oluna bilir. Məzmunun aşağı qatını bərpa edən zaman uşaq nağılları personajlarının balaca uşaqların dünyagörüşünə uyğun seçildiyini görə bilərik. Uşaq nağılları söyləyən nağılçı öz qarşısındakının estetik zövqünü nəzərə alaraq, onu təbiət obrazları ilə, mübaliğəli süjetlə tanış edir. "Beləliklə, uşaq nağıllarında uşaqların davranışı, bir-biri ilə rəftarı, münasibəti, məşğuliyyəti həyatda olduğu kimi təsvir edilir" (7, 412). Bu fikirlərimizi şərh etməyə çalışaq.

Sehrli süjetini itirərək uşaq nağılı məzmununu alan nağıllar nisbətən yuxarı yaşlı uşaqların təfəkkürünə uyğun gəlir. Belə uşaqlar artıq nağıllardakı faktları başa düşməyə çalışır, oradakı mənfi obrazlara tənqidi nöqteyi-nəzərdən yanaşa bilir, uşaq nağıllarının əvvəlki sehrli süjetindən xəbərsiz olur. Uşaq nağılları içərisində də alt qatdakı sehrli məzmuna malik nağıllar mühüm yer tutur. Belə nağıllar məktəbli uşaqların yuxarı yaş qrupunun zövqünə daha çox uyğundur. Sehrli nağılların öyrənilməsi uşaq dünyagörüşü üçün zəngin məlumatların əldə edilməsində çox əhəmiyyətlidir. Sehrli nağıllarda div və ya başqa obraz sehrli qüvvə kimi nağılın məzmununun ayrılmaz hissəsidir (5, 182). "Cırtdanın nağılı"nda da əsas personajlar Cırtdan və Div mifoloji obrazlarıdır. Xeyirxah və şər qüvvələri təmsil edən bu personajlar mifoloji təfəkkürün ən alt layında odla və qədim kultla bağlı olaraq

canlı personajlar olmuşlar. Onlar uzaq keçmişdəki söyləyicilər tərəfindən nağıl obrazı formasına salınmış, mətn isə daha sonralar uşaq nağılı kimi sabitləşmişdir. Nağılda Cırtdan od ruhunu, Div isə kultu (pərəstiş formasını) təcəssüm etdirir. Fakt kimi deyək ki, Cırtdanın balacaboylu olması təsəvvürdə od ruhunun balaca kimi düşünülməsinə uyğun gəlir.

Azərbaycan mifologiyasında da Cırtdan və Divin yuxu vasitəsilə bərpa olunmuş mifoloji dünyagörüşün tarixi haqqında ilk dəfə tərəfimizdən fikir söylənilir. Cırtdanın içində qədim bir nəhəng div mahiyyəti yatır. Qədim əcdadlarımızın arxaik düşüncəsindəki Cırtdanın mahiyyətində ruhun balaca boylu təsəvvür edilməsi və mifoloji şüurda balaca boyluluğun formalaşması fəal rol oynayır. Bu düşüncəyə uyğun olaraq nəhəngliyin böyümə və kiçilməsi (growth shrinkage) tarixi proses kimi üzə çıxır, göz yaddaşında Cırtdanın şəkillənmiş obrazı yaranır. Nəhəng görünən şər obrazlara, məsələn, Əjdahaya və Divə inanc dəyişir. Bir zaman "qəhrəman-əjdaha" olan onqon "Qazan-Əjdaha" paradiqmasından keçir (9, 445). Onlar sonra mifoloji şüurda antiqəhrəmana çevrilirlər. Mifoloji şüurda Div Əjdahanın paradiqması kimi yaşayır. Divdən sonra paradiqma olmadığından mifoloji şüurda nəhəngliyin izi itir, onun əks-paradiqması kimi Cırtdan doğulur. Bu proses zamanı Div gözün proyeksiyasında və yaddaşda da kiçilir, mənası daralır, təhtəlşüurda balaca boyluluğun canlandırılması və şəkillənməsi prosesi gedir. Belə nəticəyə gələ bilərik ki, Div özündən əvvəlki paradiqmalar kimi yaratdığının şəklinə girir, öz şər xüsusiyyəti ilə Cırtdanın içində doğulur, yəni inisiasiyadan keçir, Div kimi ölür, Cırtdan kimi dirilir. Bu prosesi "Oğuzun təəccübü" əfsanəsində təsvir olunan nəhəng cırtdan boylunun "growth shrinkage" obrazıdır. Nəhəngin ovcunda tutduğu və anasına göstərdiyi cırtdan məxluq gələcək insan nəslini təmsil edir (2, 221). Deməli, intuitiv dərketmədəki "growth shrinkage" (böyümə-kiçilmə) prosesinin nəticəsində Divin kiçilməsinin qavranılması mifoloji şüurda Cırtdanı formalaşdırır. Eyni cinsli Cırtdan və Divin arasında antaqonist mübarizə başlanır.

Cırtdan və Div öz mənşəyinə görə animizmə bağlıdır. Xeyirxah və şər qüvvələri təmsil edən bu personajlar mifoloji təfəkkürün ən alt layında və qədim kultla bağlı olaraq canlı personajlar şəklində uzaq keçmişdəki söyləyicilər tərəfindən nağıl obrazı formasına salınmış, mətn isə daha sonra uşaq nağılı kimi sabitləşmişdir. Cırtdan od ruhunu, Div isə kultu (pərəstiş formasını) təcəssüm etdirir. Fakt kimi deyək ki, Cırtdanın balacaboylu olması təsəvvürdə od ruhunun balaca kimi düşünülməsinə uyğun gəlir.

Dünya xalqlarının mifologiyasında Cırtdan ən çox yayılmış obrazdır. Cırtdanlar nəhəng insanlardan sonra yer üzündə yaşayacaq ağıllı insanlar kimi rəvayətlərimizdə də qiymətləndirilir. Oğuz miflərində Oğuzun əlində tutduğu balacaboylu məxluqu anası gələcək nəslin ağıllı varlığı hesab edir.

Azərbaycan nağıllarında yuxu motivi mətnin formalaşmasında xüsusi rol oynayır. Buna görə də yuxu və mif, yuxu və nağıl problemləri mətnin genetik

kodunun üzə çıxarılmasını tələb edir. Bu prosesi aşkar etmək üçün nağılın degenerativ zamanındakı işarələrini axtarmaq lazımdır.

Yuxu və mif problemi yuxu və nağıl məsələsinin də araşdırılmasını tələb edir. Nağılların formalaşmasında yuxu bilavasitə, ya da dolayısı ilə iştirak edir. Nağıl qəhrəmanı yuxu vasitəsilə degenerativ zamandan keçir, Aşağı dünyaya daxil olur. Bu zaman yuxu qəhrəmanın Aşağı dünyadakı fəaliyyətini proqramlaşdırdığı şəkildə idarə edir. Nağılların bu yolla öyrənilməsində yuxunun psixoloji və analitik rolu vardır. Ə.Bayramov və Ə. Əlizadə yazırlar ki, "süursuzluq sahəsində hətta eyni bir psixi aktda (məsələn, yuxugörmə zamanı) keçmiş, indiki və gələcək zamanın uzlaşması, bir-birinə qarışması məhz bundan irəli gəlir" (4, 212).

Yuxu təhtəlşüurda "Cırtdanın nağılı"nı formalaşdıran mifoloji-bədii proseslərdən ibarətdir. Yuxu bir inam növü kimi nağıl süjetinin alt qatında yaşayan geniş bir psixoloji sferadır. Bu sfera mifdə yuxu obrazlarının – Əjdahanın, Divin və Cırtdanın psixologiyasını yuxu vasitəsilə idarə edir. Məsələn, Əjdaha yuxudan qüvvət alır, Div ölüm yuxusuna gedir, Div yuxu vasitəsilə ölüb-dirilir, Div yuxu vasitəsilə böyüyüb kiçilir. Cırtdan yuxu vasitəsilə Divin paradiqması olur, yaxud Div vasitəsilə xarakterini dəyişir. "Cırtdanın nağılı"nın formalaşmasının süjet sxemini 15 yuxu məkanında qurmaq olar.

Yuxunu geniş və böyük bir dairə, sfera şəklində təsəvvür etsək, bu dairənin və sferanın işində adları qeyd olunan 15 yuxu məkanını bu dairənin və sferanın tərkib hissəsi adlandıra bilərik. Bunlar aşağıdakılardır:

1. Yuxu və mif;
2. Yuxu və nağıl;
3. Yuxu və ölüb-dirilmə;
4. Yuxu və böyümə-kiçilmə;
5. Yuxu və ölüm;
6. Yuxu və Əjdaha;
7. Yuxu və Div;
8. Yuxu və Cırtdan;
9. Yuxu və obraz;
10. Yuxu və fantastika;
11. Yuxu və ideya.
12. Yuxu və məna
13. Yuxu və şəxsləndirmə, simvol
14. Yuxu və apelyativ ad
15. Yuxu və ritual

Yuxunun sferasının dairəviliyini "Kitabi-Dədə Qorqud"dakı "Basat boyu"nda adı çəkilən yığnağın təpikləndikcə böyüməsi ilə müqayisə etmək olar. Yığnaq təpikləndikcə böyüdüyü kimi, nağıldakı dairə də bura daxil olan hissələrin çoxluğu ilə genişlənir, böyük bir məkan sferasını əmələ gətirir. Bu hissələri qısaca belə xarakterizə etmək olar:

1. Mifologiyanın öyrənilməsində yuxu fenomen kimi diqqəti cəlb edir. Mifin, əfsanənin yaranmasında yuxu proses kimi, nağılın, eposun, dastanın və başqa janrların formalaşmasında isə motiv kimi iştirak edir. Mifdə və əfsanədə yuxunun rolu hiss olunmayacaq dərəcədə gizlidir. Buna görə nağıllarda da degenerativ zamanın fəaliyyətini qəbul edirəm. “Cırtdanın nağılı”nda bu gizlilik müəyyən dərəcədə “Kim yatmış, kim oyaq?” formulunda qorunur. İnisiasiya prosesində nağıl qəhrəmanı Cırtdanın od ruhundan qəhrəmana çevrilmək prosesində yuxu əsas amil kimi iştirak edir. Eyni zamanda Cırtdan Divin yuxu vasitəsilə “böyüyüb-kiçilməsi” prosesinin məhsulu kimi ortadadır. Mif süjetində Cırtdan Aşağı dünyada ölü vəziyyətində yaşayır. Div ölümə məhkum olduğundan onun da yeri Aşağı dünyadır. O, Aşağı dünyaya enmək üçün Cırtdanın cildinə girməlidir. Bu toqquşma zamanı Cırtdan diriləraək xeyirxah qüvvəyə çevrilir və Yuxarı dünyaya qalxır. Nağılda gördüyümüz meşə və çay Aşağı dünya ilə Yuxarı dünya arasında aralıq rolunu oynayır. Bu aralıq həm də marginal zamana keçiddir.

2. Bir çox nağıllarda div yuxuda olur. Qəhrəman onu oyadıb öldürür. Mif şüurunda “Cırtdanın nağılı”ndakı Div də, Cırtdan da yuxulamaqdadır. Divlər yatağandır. Onlar 40 gün, 40 gecə, bəzən də üç ay yuxulayırlar. Div 40 gün, 40 gecə yatmaqla böyüyür, nəhəngləşir. Uşaq yuxuda böyüdüyü kimi Div də böyümə prosesini yuxuda keçir. Onun kiçilmə prosesi isə yuxu vasitəsilə geriyə dönüş sayıla bilər. Divin 40 gün yuxulaması yuxarı həddir. Bu 40-dan son həddə qayıdış sıfıra qədərdir. Sıfır kiçilmə nöqtəsidir.

Folklor şüuruna keçiddə isə Div və Cırtdan oyaqdır. Yuxu Cırtdanla bağlı mifin əmələ gəlməsində rol oynayır. Od ruhu kimi yatıb Cırtdan kimi oyanan nağıl qəhrəmanı ağıllı, bacarıqlı, hər şeydən xəbərdar olmaq kimi xüsusiyyətləri yuxuda alır. Yuxu kiçik ölümdür, inisiasiya da ani ölmək və dirilməkdir. Onların hər ikisi mifdə bir-birini tamamlayır. Yuxunun şərtinə görə Cırtdanın fəaliyyəti, məkanı Aşağı dünyadadır. Buna görə də mifdə Cırtdanın fəaliyyəti Aşağı dünyada təsvir olunmalıdır. Mifdən nağıla keçiddə Cırtdanın fəaliyyəti avtomatik olaraq bu dünya ilə bağlanır. Bu səbəbdən də yuxu yolu ilə yaranan nağılları iki qrupa ayırmaq olar: ilkin yuxunun təsiri ilə yaranan nağıllar və həmin nağılların süjeti əsasında yenidən inkişaf edən nağıllar. Birinci qrupa daxil olan nağıllar artefakt nağıllardır, onların əsasında yaranan nağıllara hələ ki “Cırtdanın nağılı”nı misal göstərə bilərik. Cırtdan ilə bağlı mifin təfəkkürdən silindiyini nəzərə alaraq, nağılın məşhur “Kim yatmış, kim oyaq?” formulunu tərsinə mif modelinə çevirsək, Cırtdanın Aşağı dünya ilə bağlılığına uyğun olaraq “Hamı oyaq, Cırtdan yatmış” formulunu alarıq.

Oyaqlıq bu dünya ilə, yatmaq isə ruhi və fizioloji proses kimi Aşağı dünya ilə bağlıdır. Nağıldakı hadisələr yuxu vasitəsilə idarə olunur. Cırtdanın artefaktı yuxu vasitəsi ilə Aşağı dünyaya daxil olur. Nağılın artefaktı da Aşağı dünyada baş verən hadisələri əks etdirir.

3. Div Cırtdanın cildinə girməzdən əvvəl inisiasiyadan keçir. “Kitabi-Dədə Qorqud” dastanındakı Basat və Təpəgöz süjeti mifdəki və nağıldakı Cırtdan və

Div süjetinə transformasiya olunmuşdur. Mifin dialektikasına görə Basat balacaboylu olmalıdır. Mif süjetində Basatın şər Nəhəngi məğlub etməsi üçün ağıl, epos yaradıcılığında onun Təpəgözə qalib gəlməsi üçün qüvvət və hiyləgərlik, adın arxetip məzmununda (şər ruh, Albastı) isə güc və nəhənglik rol oynayır (Basat da Təpəgöz kimi nəhəngdir).

Yuxunun əks etdirdiyi şər motivinə uyğun olaraq mifdə də Cırtdan şər ruhlu olmalıdır. Günəşin udulması motivinə çox miflərdə rast gəlinir. Nağılda da Cırtdanın oyaq qalmasının səbəbi nənəsinin ona bişirdiyi qayğanaqla bağlıdır. Qayğanaq sarı rəngdə, dairə şəklində olub Günəşi simvolizə edir. Şər ruhlu Cırtdan hər dəfə qayğanağı yeməklə Günəşi udmuş olur (Deməli, Cırtdanla Əjdaha arasında da yaxınlıq vardır). Bu isə təkrarlanan prosesdir. O, Günəşi udmaqla onun hərarətindən sanki dirilir.

Nağılda Cırtdanın öz ağlı ilə özündən qat-qat güclü düşmənə, Divə qalib gəldiyi təsvir olunur (3, 296-298). Nağılda Cırtdan balacaboylu oğlan kimi verilir. Uşaqlar üçün Cırtdanın mənşəyi maraqlı deyil, onun düşmənə qarşı nə cür mübarizə aparması cəlbedicidir. Uşaq təfəkküründə azman Divlə balaca Cırtdanın mübarizəsi təzadlı görünür. Nağılçı bunu dinləyicisinə başa salmaq üçün Cırtdanın ağıl və vasitələrdən necə istifadə etdiyini göstərir.

"Cırtdanın nağılı"nda uşaq təfəkkürü yaşa uyğun olan bədii strukturu qəbul edə bilir. Nağıldakı "Nənəm sizə yağ-əppək verib, məni də dalınıza alın" kimi cümlələr süjetə bədiilik verir. Nağılın məzmunundakı "it hürən tərəfə", yoxsa "işıq gələn tərəfə" getmək seçiminin alt qatındakı mifoloji məzmun isə onu maraqlandırmır. Bu uşaq nağılının daha qədim süjetinin mətni sehrli nağıllar növünə aiddir, sehrli nağıllar "yaranma zəmininə görə mürəkkəb sxemlidir**"** (8, 331). Çünki burada əsas nağıl personajları olan Cırtdan və Div mifoloji obrazlardır. Azərbaycan mifologiyasında da Cırtdan və Divin keçdiyi mifoloji dünyagörüşünün tarixi haqqında ilk dəfə tərəfimizdən fikir söylənilir. Cırtdanın içində qədim bir nəhəng div mahiyyəti yatır.

4. Qədim əcdadlarımızın arxaik düşüncəsindəki Cırtdanın mahiyyətində ruhun balaca boylu təsəvvür edilməsi və mifoloji şüurda balaca boyluluğun formalaşması fəal rol oynayır. Bu düşüncəyə uyğun olaraq nəhəngliyin böyümə və kiçilməsi (growth shrinkage) tarixi proses kimi üzə çıxır, göz yaddaşında Cırtdanın şəkillənmiş obrazı yaranır. Nəhəng görünən şər obrazlara, məsələn, Əjdahaya və Divə inanc dəyişir. Divdən sonra paradiqma olmadığından mifoloji şüurda nəhəngliyin izi itir, onun əks-paradiqması kimi Cırtdan doğulur. Bu proses zamanı Div gözün proyeksiyasında və yaddaşda da kiçilir, mənası daralır, təhtəlşüurda balaca boyluluğun canlandırılması və şəkillənməsi prosesi gedir. Belə nəticəyə gələ bilərik ki, Div özündən əvvəlki paradiqmalar kimi yaratdığının şəklinə girir, öz şər xüsusiyyəti ilə Cırtdanın içində doğulur, yəni inisiasiyadan keçir, Div kimi ölür, Cırtdan kimi dirilir. "Oğuzun təəccübü" rəvayətində təsvir olunan Cırtdan nəhəng boylunun "growth shrinkage" (böyümə-kiçilmə) prosesindən keçən obrazıdır. Nəhəngin ovcunda tutduğu və anasına göstərdiyi cırtdan məxluq gələcək

insan nəslini təmsil edir (2, 221). Deməli, intuitiv dərketmədəki "böyümə-kiçilmə" prosesinin nəticəsində Divin kiçilməsinin qavranılması ilə mifoloji şüurda Cırtdan formalaşır. Eyni cinsli Cırtdan və Divin arasında antaqonist mübarizə başlanır.

5. Ölüm onların hər ikisinə də aiddir. Cırtdan və Div öz mənşəyinə görə animizmə bağlıdırlar. Bu obrazlarda ruhun ölümsüzlüyü mətndə Divin və Cırtdanın ölümlü olması ilə əvəzlənir. Bu personajlar qədim kulta bağlı olmuşlar, mifoloji təfəkkürün alt layındakı xeyirxah və şər qüvvələri təmsil etmişlər. Uzaq keçmişdəki söyləyicilər də bu canlı personajları nağıl obrazı formasına çevirmişlər. Bundan sonra mətn uşaq nağılı kimi sabitləşmişdir. Cırtdan od ruhunu, Div isə kultu (pərəstiş formasını) təcəssüm etdirir. Fakt kimi deyək ki, Cırtdanın balacaboylu olması təsəvvürdə od ruhunun balaca kimi düşünülməsinə uyğun gəlir.

Dünya xalqlarının mifologiyasında Cırtdan ən çox yayılmış obrazdır. Cırtdanlar nəhəng insanlardan sonra yer üzündə yaşayacaq ağıllı insanlar kimi rəvayətlərimizdə qiymətləndirilir. Oğuz miflərində Oğuzun əlində tutduğu balacaboylu məxluqu anası gələcək nəsilin ağıllı varlığı hesab edir. Ümumiyyətlə, boyun balaca və ya böyük olması fiziki hadisədir. İnsanlarda boy artımı yerin kütləsindən və göyün cazibə qüvvəsindən asılıdır. Kütlə çox və cazibə az olanda insanlar uzunboylu, əksinə olanda isə qısaboylu olur.

İşığın emanasiyası (şüa buraxması), havada oksigenin, suda kalsiumun çox, atmosfer təzyiqinin az olması gerçəklikdə və təsəvvürdə uzunboyluluğu, əksinə, işıq selinin qısa, havada oksigenin, suda kalsiumun az, atmosfer təzyiqinin çox olması isə balacaboyluluğu yaradır və od ruhu kimi təcəssüm olunan Cırtdanı əks etdirir.

Mifologiyada da Divlə Cırtdan arasında qarşıdurma dəyişən prosesdir. Qəbilə quruluşu dövründə qəbilənin baş məbudu olan Divə (Devuş) etiqad var idi. Sinifli cəmiyyət formalaşanda dini inanc forması da dəyişdiyindən Divə etiqad edilməsi yasaqlandı, Divi zülmətlə əlaqələndirdilər, şər qüvvə elan etdilər. "Divlər haqqında kitabə"nin 35 – 47-ci sətirləri divlərə sitayişin qadağan olunmasına həsr edilmişdir (1, 21).

Baş məbud olan Devuş "Avesta" tərəfindən rədd edilərək, qaranlıq dünyada Əhrimənin köməkçisi elan olundu. Binar oppozisiyanın inkişafında bu qadağanlar da rol oynamışdır. Binar oppozisiyalara (iki tərəfin qarşıdurması) obrazların əks xarakterik xüsusiyyətə malik olması xasdır. Obrazların qarşıdurmasına zaman etibarilə mifoloji xarakterlərin məzmunlarının dəyişməsi də təsir edir. Biz bu xarakterik xüsusiyyətlərin dəyişməsini Cırtdan və Div oppozisiyasında da görə bilərik. Dediyimiz kimi mifoloji təfəkkürün ilkin çağlarında Div müsbət qəbul olunan məbud olmuş, Cırtdan isə mənfi xarakterin sahibi kimi mifologiyanın ən qədim vaxtlarında mifoloji düşüncədə yaşamışdır. Müəyyən tarixi zaman çevrəsində dəyişən insan psixologiyasının təhtəlşüura təsiri nəticəsində mənfi xarakterli Cırtdan müsbət xarakterli Cırtdana çevrilir. Nağılda və mifoloji təfəkkürdə Cırtdanın iki tipi ilə qarşılaşırıq: Cırtdan – balacaboylu mifoloji məxluq; Cırtdan – od ruhu-

nun simvolizə etdiyi şəxsləndirilmiş varlıq. “0” həddindən başlayaraq Cırtdanın mənfi işarəsi müstəvidən -1, -2, -3... olaraq yuxarı sıralanır, Divin də müsbət işarəsi müstəvinin son həddi üzərində ...+3, +2, +1 olaraq aşağıya doğru Cırtdanın mənfi işarəsi ilə toqquşur. Müstəvi üzərindəki Div sıfır həddindən aşağıdakı Cırtdanla toqquşan zaman onlar işarələrini dəyişirlər, Div mənfi işarəli, Cırtdan müsbət işarəli olur. Onların toqquşması marginal zamanda baş verir.

6. Mifoloji şüurda Əjdaha, Aslan, Təpəgöz və div obyektiv reallıqlar deyil, onların, xüsusən, Divin böyüyüb kiçilməsi (growth shrinkage) prosesində sonra yaranan məxluq da real canlı deyil. Cırtdan ölümə məhkum olan Divin kiçilməsindən yaranan və onun əksi olan mifoloji varlıqdır. Aslan, Təpəgöz və Div Əjdahanın paradiqmasıdır. Divdən sonra bu yaradılışda paradiqma yoxdur, çünki işarəsi sıfırdır. Bu səbəbdən xalq arasında da yaşından çox bilən uşaqlar haqqında belə bir deyim işlənir: Bu uşaq bir dəfə böyüyüb kiçilmişdir.

Dünya xalqlarının mifologiyasında Cırtdan ən çox yayılmış obrazdır. Cırtdanlar nəhəng insanlardan sonra yer üzündə yaşayacaq ağıllı insanlar kimi rəvayətlərimizdə qiymətləndirilir. Oğuz miflərində Oğuzun əlində tutduğu balacaboylu məxluqu anası gələcək nəslin ağıllı varlığı hesab edir.

Bəzi xalqların folklorunda da divin üzərinə düşən funksiyanı dünya miflərindəki Cırtdan yerinə yetirir. Bu, qədim bir ritualın strukturundan irəli gəlir. “Cırtdan nağılı”nın da mənşəyində Divə olan sitayiş və sitayişdən sonrakı dövrlərin Div→Cırtdan ilə bağlı mifoloji görüşləri əks etdirən həmin qədim ritual dayanır. Yunan mifologiyasında göy üzünü div saxlayırsa, Skandinaviya mifologiyasında bu mifoloji vəzifəni Cırtdan icra edir. Dünya xalqlarının miflərində də cırtdanlar gələcək nəslin insanları kimi təsvir olunurlar.

7. Cırtdan təzadlı bir obrazdır. Cırtdanlar bəzən pəri kimi də təsvir olunurlar. Alman folklorunda bu pərilər şər xislətli və təhlükəli, ingilis miflərində isə mehriban və xeyirxahdır. Məsələ də onu necə görməkdən asılıdır. V.Qrimm qardaşları öz məşhur nağıllarında cırtdanların həm müsbət, həm də mənfi xüsusiyyətlərindən bəhs edirlər.

8. Mifoloji təfəkkürdə balacaboylu cırtdanla div qarşılaşan zaman (toqquşan zaman) mifoloji şüurun formalaşmasının nəticəsi olaraq mənfi yükün müsbət yüklə, müsbət yükün mənfi yüklə əvəzlənməsini görmək olar. Deməli, indiki müsbət nağıl qəhrəmanı Cırtdan Divlə toqquşanda onun müsbət səciyyəsi böyük zaman çevrəsində mənfiyə doğru dəyişməlidir. Bu mifoloji çevrilmə prosesi tarixdən əvvəlki dövrdə baş verən zaman mənfi cırtdan divin müsbət işarəsini özünə yükləmiş və nağıldakı Cırtdan obrazının yaranmasına səbəb olmuşdur. Və əksinə prosesdə müsbət Div indi nağıllarda mənfi divlər kimi xarakterizə olunmuşdur. Bu proses dini dünyagörüşlərin toqquşması nəticəsində baş verir. Məsələn, Zərdüşt təliminin yaranması nəticəsində divlərə sitayişin qadağan olunması cəmiyyətin şüurunun dəyişməsi ilə bağlıdır.

9. İctimai yasaq divlərə olan münasibəti öz əvvəlki məzmunundan ayıraraq, ona mənfi xüsusiyyətlər aşılamaqla bədxah obraza çevirir. Deməli, “Avesta”dan

əvvəlki dövrün şüur məhsulu olan div müsbət olsa da, dini şüurun ictimai şüura təsiri ilə əvvəlki formasından uzaqlaşır, "Cırtdanın nağılı"ndakı axmaq və ağılsız obraza çevrilir. Bu obrazın nağılda digər bir xüsusiyyəti isə balaca uşaqları əyləndirmək məqsədilə onun gülünc vəziyyətə salınmasıdır.

10. Uşaqları əyləndirmə uşaq nağıllarının başlıca xüsusiyyətidir. Cırtdanın ağıllılığı onun uşaqlar tərəfindən sevilməsinə səbəb olur. Biz bunu başqa nağıllarda da görürük. Nağıl fantaziyasında Div də, Cırtdan da uydurulmuşdur. Fantaziya "Cırtdanın nağılı"nı uşaqlara sevdirən əsas amildir.

Fantaziya və nağıldakı təbiətin təsviri – meşə, çay, dağ, daxma və sair balaca uşağın təbiətlə təmasını və zövqünü formalaşdıran vasitələrdən biridir. Azərbaycan nağılları arasında sehrli məzmununu itirərək uşaq nağılına çevrilən nümunələr azlıq təşkil edir.

11. Nağılın bədii mətninin formalaşması prosesi də ideyanın xüsusiləşməsindən sonra başlayır. İdeyada əsas məqsəd, hər şeydən əvvəl, uşaq nağılında dostluq, sevgi, sədaqət, qarşılıqlı yardım, xeyirxahlıq və digər hisslərin tələb kimi qarşıya qoyduğu problemin irəli sürülməsidir. Məhz ideyanın təşkilindən sonra onun çevrəsində motivasiya (nağılın ümumi məzmunu ilə əlaqənin qurulması) yaranır. Motivasiya isə öz növbəsində eyni adlı motivləri formalaşdırır. Nağılda ideyanın rolu əsas hadisələrin başlanğıcına qədərdir. Nağılda da mətnə verilən bu tələbin giriş hissədə yerinə yetirildiyini görürük. "Cırtdanın nağılı"nın başlanğıcında əsas ideya süjet xəttinin əvvəlində ifadə olunur. Cırtdanın balaca, lakin ağıllı olması buradan bilinir. İdeya Cırtdanın ağıllı obraz kimi təqdimində rol oynayır. Yəni onun ağlının köməyi ilə o biri uşaqlar da Divin əlindən xilas olurlar. Şərə qarşı mübarizənin və ağlın gücünün təntənəsi bir neçə abzasda əksini tapan xilaskarlıq ideyasında özünü büruzə verir (3, 296). Nağılın ideya-tərbiyəvi əhəmiyyəti, xeyirxahlığın uğrunda çalışan zəiflərin müdafiəsi şər üzərində qələbə ilə ölçülür. Nağılların ideya-tərbiyəvi rolu həmişə xeyirxahlığa, zəiflərin müdafiəsinə, onun şər üzərində qələbəsinə xidmət etmişdir.

Nağılın bədii mətninin formalaşması prosesi də ideyanın xüsusiləşməsindən sonra başlayır. İdeyada əsas məqsəd uşaq nağılında dostluq, sevgi, sədaqət, qarşılıqlı yardım, xeyirxahlıq və digər hisslərin qarşıya qoyduğu problemin irəli sürülməsidir. İdeya haqqında bir çox uşaq nağıllarından misal göstərmək olar. Belə deyə bilərik ki, ideya öz növbəsində mənanı da formalaşdırır. Daha doğrusu, məna ideya ətrafında formalaşır.

12. Diqqətlə fikir versək görərik ki, Cırtdanın uşaqlara "anam sizə yağ yaxması verdi ki, mənim də odunumu toplayasınız", "anam sizə yağ yaxması verdi ki, mənim də odunumu doğrayasınız", "anam sizə yağ yaxması verdi ki, mən yorulanda məni də dalınıza götürəsiniz" (3, 296 – 297) cümlələri nağıldakı mənanı izah etməyə yönəlmişdir. Bu məna nədir? Gələcək hadisələrdən qorunmaq üçün Cırtdanın fiziki qüvvəsi yox, əqli qüvvəsi bu mənanın açımında rol oynayır. Nağılın əvvəlindəki Cırtdanın bu hərəkətlərində mənanın olduğu artıq başa düşülmüş olur.

Məzmun isə mənadan törəmədir. Bədii əsərdən fərqli olaraq nağılda məna məzmunu formalaşdırır. Məna ilə məzmun arasında əlaqə birbaşa görünmür. Məna məzmuna baxanda ümumidir, məzmun isə xüsusilik təşkil edir. "Ay Cırtdan, it hürən tərəfə gedək, yoxsa işıq gələn tərəfə?" cümləsi də öz-özlüyündə məna daşıyıcısıdır. Biz burada bu cümlənin xüsusi məna daşıdığını görürük. Məhz nağılda məzmunun xüsusilik təşkil etməsi "it hürən, yoxsa işıq gələn səmtə" getməyin xüsusi mənada olmasından asılıdır. Ruhun işığa həssas olması, itdən qorxması ümumi məna kəsb etmir, bu proses ancaq Cırtdan obrazında xüsusi işarə kimi qədim mifik hadisəni yada salır. Məhz mifoloji təfəkkürdəki həmin mifik hadisə tarixi şüur prosesində sözlü mətnə çevrilir və əvvəl mifin, sonra nağılın strukturuna daxil olur. Deməli, məna eyni zamanda simvoldur. Mifoloji şüurda ruhun balacaboylu olması nağıl mətnində obraz vasitəsilə simvollaşır (Cırtdan balacaboyluluğun simvolu kimi).

13. Məna kimi simvol da xüsusiləşir. Bir simvol bir mənanın işarəsidir. "Sözlə ifadə olunmuş həyat faktı simvola çevrilir" (5, 50). Deməli, mənanın simvol olması üçün onu sözlə ifadə etmək lazımdır. Bundan sonra simvol ümumi məzmuna çevrilərək, nağılda xeyiri və şəri ifadə edir. Simvolun işarələri nağılda söz, cümlə, ideya, məna, məzmun və mətn laylarından keçərək, nağılın formalaşmasında iştirak edir. Bütün bu proses simvolik təsvir yolu ilə nağıl mətninin göstəricisinə çevrilir. Deməli, bu hadisə, Cırtdanın özü və Div ancaq təfəkkürün məhsuludur. Sadəcə olaraq nağıl mətni simvolik işarələr sistemidir.

Biz Divə və Cırtdana bədii obraz deyə bilərikmi? Onlar daha çox ümumi səciyyə daşıyan mənfi və müsbət qəhrəmanların apelyativləşmiş adlarıdır. Nə vaxtsa bu ümumiliyin əsasında xüsusi anlam da olmuşdur. Məsələn, Məlikməmməd qəhrəman tipi olmamışdan əvvəl əjdaha, sonra ölüb-dirilən tanrı kimi düşüncədə obrazlaşmış, birin birə nisbətində ölüb-dirilən tanrı adı kimi apelyativləşmiş, qəhrəman adına transformasiya olunmuşdur. Deməli, bədii düşüncədə obrazdan obraza keçid olmuşdur. Bədii düşüncədə ölüb-dirilmə əlaməti qədim tanrının simvol işarəsi kimi onun mifoloji düşüncədə bədii formasını yaradan xüsusi keyfiyyətə çevrilir. Bu, fantastikadır. Fantastika da, ölüb-dirilmə də bədii düşüncədə qeyri-maddidir. Deməli, bu funksiyanı yerinə yetirən tanrı da qeyri-maddidir.

14. Burada funksiya ilə simvol arasında bərabərlik işarəsi qoymaq olar. Cırtdan şəxsləndirildikdən sonra maddiləşir, məna ilə bağlı apelyativ ad qazanır. Deməli, o, bədii obraza çevrilə bilir. Cırtdan əvvəl qeyri-maddi formada düşünülmüş, simvol məzmununda olmuş, maddiləşdikdən sonra (yaxud şəxsləndirildikdən sonra) bədii obraza çevrilmişdir. Folklorda qeyri-maddi olan onun əksidir. Belə deyə bilərik ki, Cırtdan öz mifoloji səciyyəsi ilə qədim sitayişin nağıldakı apelyativi, yaxud əksidir. Folklordakı şəxsləndirilmiş Cırtdan öz qəhrəman səciyyəsi ilə qədim inancın təsəvvürdəki yaradılışıdır.

Mifoloji şüurda Əjdaha, Arslan, Təpəgöz və div obyektiv reallıqlar deyil, onların, xüsusən, Divin böyüyüb kiçilməsi (growth shrinkage) prosesindən sonra yaranan məxluq da real canlı deyil. Cırtdan ölümə məhkum olan Divin kiçilmə-

sindən yaranan və onun əksi olan mifoloji varlıqdır. Arslan, Təpəgöz və Div Əjdahanın paradiqmalarıdır. Divdən sonra bu yaradılışda paradiqma yoxdur, çünki işarəsi sıfırdır. Bu səbəbdən xalq arasında da yaşından çox bilən uşaqlar haqqında belə bir deyim işlənir: "Bu uşaq bir dəfə böyüyüb kiçilib".

15. Dünya xalqlarının mifologiyasında Cırtdan ən çox yayılmış obrazdır. Cırtdanlar nəhəng insanlardan sonra yer üzündə yaşayacaq ağıllı insanlar kimi rəvayətlərimizdə qiymətləndirilir. Oğuz miflərində Oğuzun əlində tutduğu balacaboylu məxluqu anası gələcək nəslin ağıllı varlığı hesab edir.

Bəzi xalqların folklorunda da divin üzərinə düşən funksiyanı dünya miflərindəki Cırtdan yerinə yetirir. Bu, qədim bir ritualın strukturundan irəli gəlir. "Cırtdanın nağılı"nın da mənşəyində Divə olan ritual sitayiş və sitayişdən sonrakı dövrlərin Div→Cırtdan ilə bağlı mifoloji görüşlərini əks etdirən ən qədim mərasim dayanır. Yunan mifologiyasında göy üzünü Nəhəng Antey saxlayırsa, Skandinaviya mifologiyasında bu mifoloji vəzifəni Cırtdan icra edir (6).

Dünya xalqlarının miflərində də cırtdanlar gələcək nəslin insanları kimi təsvir olunurlar. Sədnik Paşayevin topladığı "Oğuzun təəccübü" adlı rəvayətdə də Cırtdanın gələcək insan nəsli yaradacağı fikri irəli sürülür.

Deməli, hər bir mütərəqqi ibtidai cəmiyyət özündən əvvəlki dünyagörüşə tənqidi yanaşmışdır. Bu mifoloji çevrilmə prosesi tarixdən əvvəlki dövrdə baş verən zaman mənfi cırtdan divin müsbət işarəsini özünə yükləmiş və nağıldakı Cırtdan obrazının yaranmasına səbəb olmuşdur. Və əksinə prosesdə müsbət Div indi nağıllarda mənfi divlər kimi xarakterizə olunur. Bu proses dini dünyagörüşlərinin toqquşması nəticəsində yaranır. İctimai yasaq divlərə olan münasibəti öz əvvəlki məzmunundan ayıraraq ona mənfi xüsusiyyətlər aşılamaqla bədxah obraza çevirir. Uşaqları əyləndirmə uşaq nağıllarının başlıca xüsusiyyətidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. 1-ci cild. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1960.

2. Azərbaycan xalq əfsanələri. Bakı: Yazıçı, 1988.

3. Azərbaycan nağılları. 5 cilddə. 1-ci cild. Bakı, 2005.

4. Bayramov Ə. S., Əlizadə, Ə. Ə. Psixologiya. Bakı: Maarif, 1989.

5. Əliyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Elm və təhsil, 2019.

6. Günel N. Boyu bir qarış, amma ondakı hünərə bax. "Aydın yol" qəzeti, 2014, 26 dekabr.

7. Qafarlı R. Uşaq folklorunun janr sistemi və poetikası. Bakı: Elm və Təhsil, 2013.

8. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. İkinci hissə. Bakı, Elm, 2006.

9. Rzasoy S. "Kitabi-türkman lisani" Oğuznaməsinin transmediativ strukturu və ritual-mifoloji semantikası. Bakı: Elm və təhsil, 2020.